Mədəniyyət.- 2008.- 8 may. S. 10-11

# HEYDƏR ƏLİYEV VƏ MSTİSLAV ROSTROPOVİÇ DOSTLUĞU

Azərbaycan xalqının taleyi layiqli övladı Heydər Əliyevin fəaliyyəti ilə qırılmaz tellərlə bağlıdır. Bu gün dünya dövlətləri sırasında Azərbaycanın müstəqil, suveren bir dövlət kimi tanınmasında ulu öndərin rolu danılmazdır. Onun siyasi iradəsi və zəkası sayəsində ölkəmiz dünyanın ən uca tribunalarından öz haqq çağırışını edə bildi. Xüsusi olaraq deməliyik ki, Azərbaycan mədəniyyətinin inkişafında H.Əliyev simasının rolu böyükdür. Bunu mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən hər bir şəxs etiraf edir. Odur ki, Azərbaycan mədəniyyətinin parlaq nümayəndələri də, daim H.Əliyev simasında özlərinə mənəvi dayaq və hamilik tapmışlar. Milliyyətcə azərbaycanlı olmayan, lakin Azərbaycan torpağında doğulan və onu dünyaya tanıtdıran istedadlar da onun diqqətindən kənarda qalmamış, daim böyük sevgi və məhəbbətlə əhatə olunmuşlar.

Belə insanlardan biri də həmyerlimiz, dünyaşöhrətli violençel ifaçısı və dirijor Mstislav Rostropoviç idi.

"Heydər Əliyev məni Azərbaycana qaytardı, Azərbaycan isə qəlbimə Vətənimi qaytardı". Bu sözləri uzun ayrılıqdan sonra 1997-ci ildə Bakıda, 70 illiyi münasibətilə təşkil olunan yubiley mərasimində böyük sevinclə deyən Rostropoviç, H.Əliyevin ona göstərdiyi xüsusi diqqət və qayğıdan məmnun idi.

Bakı dövrü M.Rostropoviçin həyatında 3 mərhələyə bölünür: I mərhələ 1927-(anadan olduğu il) 1931, II mərhələ 1960-1970, III mərhələ isə 1997-2006-cı illəri əhatə edir. Azərbaycanda musiqi ab-havası altında keçirtdiyi uşaqlıq illəri onun həyatında böyük iz buraxmışdır. Çünki o, məhz burada atasından ilk musiqi dərslərini almış, ilk bəstəsi olan "Polka" rəqsini yazmışdır.

70-ci illərin əvvəli M.Rostropoviçin həyatında çox ağır bir dövr olduğunu qeyd etməliyik. Yalnız istedadlı insanlara göstərdiyi qayğı nəticəsində demokratiya və azadlıq uğrunda mübarizəyə qalxan yazıçı A.Soljenitsını öz bağ evində saxladığına görə, zəmanəmizin dahi insanı durmadan haqsız təzyiqlərə məruz qalmışdır.



Məhz həyatının belə bir çətin dövründə, 1971-ci ildə o, Bakıya gəlir. Hər zaman istedadlı insanları diqqət mərkəzində saxlayan H.Əliyev, maestro Niyaziyə M.Rostropoviçi olduqca böyük qayğı və diqqətlə əhatə etməsi üçün tapşırıq verir. H.Əliyev M.Rostropoviçin Vətənində sevgi ilə əhatə olunmasına çalışırdı. Bəlliklə, mənən sarsıntı keçirən M.Rostropoviç, qayğıkeş rəhbər H.Əliyev və bəstəkar Q.Qarayev, T.Quliyev, A.Rzayev, gənc pianoçu F.Bədəlbəyli, rejissor T.Kazımovski, bir sözlə, bakılı dostların əhatəsində layiq olduğu münasibəti görür.

Həmin ilin 15-19 sentyabr tarixlərində Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində hər gün yeni proqramla iki konsertdə çıxış edən Rostropoviç, həmyerliləri tərəfindən böyük sevinclə qarşılandı. O günlər Azərbaycan ictimaiyyəti üçün əsl musiqi bayramına çevrilmişdi.

1997-ci ildə M.Rostropoviç ona hər zaman arxa duran dostu H.Əliyev cənablarını 70 illik yubileyinə Parisə dəvət edir. Azərbaycan Prezidenti H.Əliyev həmyerlisinin dəvətini qəbul edir.

Elə bu zaman H.Əliyevin sərəncamı ilə təşkilat komitəsi yaradıldı. Maestronun dünyaya göz açdığı doğma vətəni Bakıda, Rostropoviçlər ailəsinin yaşadıqları mənzilin yerləşdiyi küçəyə və 21 saylı musiqi məktəbinə ata və oğul Rostropoviçlərin adı verilir. Yaşadıqları mənzilin qarşısında isə xatirə lövhəsi açıldı. Bunlarla yanaşı, dövlət başçısı tərəfindən həmin mənzildə L. və M. Rostropoviçlərin ev-muzeyi yaradılması haqqında sərəncam verildi. Bütün bunlar isə H.Əliyevin dahi Maestronu dönə-dönə dəyəndirilməsinin təzahürü idi.

(ardı səhifə 11-də)

(əvvəli səhifə 10-da)

Təbii ki, H.Əliyev və dünyaşöhrətli musiqiçi, əsl insani keyfiyyətlərə malik, vətəninə sadiq M. Rostropoviç - bu iki böyük şəxsiyyətin əməkdaşlığı, dostluğu Azərbaycan xalqının daim inkişafı üçün görülən əməllərin həyata keçirilməsi ilə nəticələnmişdir. Maestronun Bakıya gəlişlərini nəzərdən keçirsək, hər gəlişində Azərbaycan xalqının mədəni inkişafına töhfə olan layihələri öz nəticəsini verməkdədir. Belə ki, M. Rostropoviçin Azərbaycan üçün həyata keçirtdiyi böyük layihələrdən biri Yaponiyadan Azərbaycan Dövlət Simfonik Orkestri üçün musiqi alətlərini əldə etmək məqsədi ilə aldığı "Qrand" idi. 3 ildən artıq vaxt ərzində həmin layihə üzərində çalışdı. Yalnız 2002-ci ildə Maestronun zəhməti və böyük nüfuzu sayəsində məşhur "YAMAHA" firması tərəfindən simfonik orkestr üçün yeni musiqi alətləri Bakıya gətirildi və bu münasibətlə Respublika sarayında təqdimat mərasimi keçirildi. Maestronun böyük səyi nəticəsində elə həmin il ABŞ-ın "Qlobal Vaksinasiya" fondu "Vişnevskaya-Rostropoviç" xeyriyyə fondu ilə birlikdə Azərbaycana hepatit əleyhinə vaksinlər gətirildi. Bu, Azərbaycanda uşaqların daha sağlam böyüməsinə yardımın, böyük xeyriyyə işinin başlanğıcı idi. Çünki, sağlam uşaq, sağlam gələcək deməkdir. İndiyədək bir milyona yaxın azərbaycanlı uşaq qızılca, məxmərək, parotit kimi yoluxucu xəstəliklərə qarşı peyvənd edilmişdir.

Doğma Azərbaycanı üçün etdiyi böyük nailiyyətlərə görə Rostropoviç Azərbaycan Respublikasının ən yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif edildi.

M.Rostropoviçin 2002-ci ilin mart ayında gəlişi doğma Bakıda Maestronun 75 illiyinin təntənəli keçirilməsinə təsadüf etmişdir. Bununla əlaqədar L. və M.Rostropoviçlərin ev-muzeyinin ekspozisiyasının açılışı olmuşdur. Açılışda Maestro, xanımı Qalina Vişnevskaya, həmçinin Rusiya, ABŞ və Fransadan yüksək rütbəli hökumət nümayəndələri qonaq qismində iştirak edirdilər. Bundan öncəki illərdə Heydər Əliyev M.Rostropoviçə yazdığı məktubların birində belə demişdir: "Sizin ev muzeyinizdə bütün hazırlıq işləri başa çatıb və Sizin Bakıya gəlişiniz zamanı Biz Sizinlə birgə onun açılışını edərik".

Əfsuslar olsun ki, həyat hər şeyi öz bildiyi kimi nizamlayır. H.Əliyev səhhəti ilə əlaqədar açılışda iştirak edə bilməsə də, onun bu ali istəyi yüksək səviyyədə həyata keçirildi.

H.Əliyev və M. Rostropoviçin birgə səyi nəticəsində Azərbaycanda daha əlamətdar hadisənin baş verdiyini qeyd etməliyik. Bəli, bu gün Azərbaycan Dövlət Filarmoniyasının fəaliyyəti hamımıza iftixar hissi gətirir. Filarmoniyanın bərpası isə məhz H.Əliyev və M.Rostropoviçin birgə siyasətinin məntiqi nəticəsidir. Bu əhəmiyyətli işin başa çatması, 2004-cü ildə filarmoniyanın bərpadan sonra açılışı münasibətilə Azərbaycana gələn M. Rostropoviçin hissləri fərqli idi.



Çünki bu təntənəli mərasimdə əziz dostu H.Əliyev iştirak etmirdi. Onun ürək sözlərini, xeyir-duasını eşidilmirdi. Təbii ki, bu nisgil Rostropoviçə kədər, ələm gətirmişdi.

Dahi liderin, əziz dostunun daim yaşayan əməllərini hər kəsə aşılamaq istəyən Rostropoviç açılış mərasimindəki çıxışında "Əziz dostumla musiqi vasitəsi ilə vidalaşmaq istəyirəm. Ona görə də Baxın "Sarabanda"-sını ifa etmək istəyirəm. "Sarabanda" mənim üçün bir dua kimi səslənir. Bu bütün insanlar üçün duadır."- deyib, H.Əliyevin portretinə doğru çevrildi və yalnız onun üçün ifa etdi.

Bu əzəli, səmimi dostluq əbədiyyət çağırışı ilə indi fotolarda, videolentlərdə və hərarətli ürəklərdə qorunur. L. və M.Rostropoviçlərin ev - muzeyinə daxil olduğun andan iki dahinin fotolardan boylanan təsvirlərinə baxanda, insanın əbədiyaşarlığını, həyatın, sevginin sonsuzluğunu bir daha dərk etmiş olursan. Daha təsirlisi isə Rosrtopoviçlər ailəsi tərəfindən muzeyə təqdim olunan, üzərində hər iki dahinin şəxsi imzası olan dəyərli məktublardır. Bu məktubların hər bir sözü, cümləsi bizim üçün əzizdir. Çünki səmimiyyətdən, böyük sevgi və rəğbətdən danışılır onlarda. Bir də doğma vətən torpağının hərarətindən rişələnən dostluqdan.

*Şeyla HEYDƏROVA,*
*L.M. Rostropoviçlərin ev-muzeyinin direktoru*